**“CASPIAN LLOYD” MMC**

# Məxfilik siyasəti

CL Azərbaycan Respublikasının qanunlarına,eləcə də tərəfdar çıxdığı beynəlxalq müqavilələrə tam əməl edən hüquqi bir şirkətdir.Şirkət məxfilik hüquqlarının qorunub saxlanması üçün bütün zəruri qaydalara xüsusi əməl edir.

CL həm korporativ və individual müştərilərinə,həm də əməkdaşlıq etdiyi şirkətlərə və gəmilərə adekvat yanaşır,onların heç bir məlumatlarının üçüncü şəxslərə ötürülməsinə imkan yaratmır.

CL komandasında çalışan hər bir əməkdaş hal-hazırda qüvvədə olan məxfilik siyasəti ilə bağlı qanuna və şirkətin daxili məxfilik siyasətinə əməl edir.

CL tərəfdaşlarının, müştərilərinin, həmçinin vebsayt vasitəsilə məlumatlarını təqdim edən istifadəçilərin məxfiliyinin qorunmasına dair öhdəlik daşıyır.

CL biznes proseslərini və şirkət fəaliyyətini əsasən müvafiq ISO standartlarına və “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun həyata keçirir.

CL Şəxsi Məlumatların təhlükəsizliyini saxlamaq və onları icazəsiz və ya qanunsuz emaldan və ya təsadüfi və ya qeyri-qanuni itirilmə, dəyişdirilmə, açıqlanma və ya əldə edilmədən qorumaq üçün məqbul texniki, elektron və təşkilati təhlükəsizlik prosedurları saxlayır.

CL əməkdaşlıq etdiyi gəmiçilik şirkətləri ilə və digər biznes tərəfdaşlarla arasında olan bütün nağd və ya nağdsız hesablaşmaları apararkən, müvafiq xidmət göstərərkən və müqavilələr imzalayıb,sənəd tərtib edərkən digər tərəfin bütün konfidensial məlumatlarını qorumağa zəmanət verir.